Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəsi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 110 saylı Zaqatala seçki dairəsi üzrə Muxax bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Məmmədov İslam Şəmsəddin oğlu və Putayev Şəmsəddin Zahid oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 01 yanvar 2015-ci il tarixli 101 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 03 yanvar 2015-ci il

Mən, ekspert qrupunun üzvü Qabil Orucov 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 110 saylı Zaqatala seçki dairəsi üzrə Muxax bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Məmmədov İslam Şəmsəddin oğlu və Putayev Şəmsəddin Zahid oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 01 yanvar 2015-ci il tarixli 101 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayətvermə müddətində verildiyindən araşdırmaya qəbul edilmişdir.

Ərizəçilər 02 yanvar 2015-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək şikayətdən imtina etmiş, müraciətin araşdırılmasına xitam verilməsini xahiş etmişlər.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci və "Azərbaycan Respublikası Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 110 saylı Zaqatala seçki dairəsi üzrə Muxax bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Məmmədov İslam Şəmsəddin oğlu və Putayev Şəmsəddin Zahid oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 01 yanvar 2015-ci il tarixli 101 saylı müraciətinin araşdırılmasına xitam verilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov